**UOT 94(479.24); UOT 32:93/94**

**RAİDƏ ƏMİRBƏYOVA**
*Avropa Şurasının Uşaq Hüquqları üzrə*
*Rəhbər Komitəsinin üzvü, Azərbaycan Universitetinin doktarantı*
**r.amirbayova@gmail.com**

# VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLAN UŞAQLARIN SOSİAL MÜDAFİƏSİ SAHƏSİNDƏ QEYRİ-HÖKUMƏT SEKTORUN ROLU (2004-2015-ci illər)

*Məqalədə müstəqillik illərində Azərbaycanda valideyn himayəsindən məhrum olan uşaqların sosial müdafiəsi sahəsində dövlət siyasətinin əsas istiqamətləri və bu sahədə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmiş müvafiq təşəbbüslər araşdırılmışdır.*

*Açar sözlər*: müstəqillik, uşaq siyasəti, qanunvericilik, beynəlxalq konvensiyalar, dövlət proqramları, uşaq təsisatları, qeyri-hökumət sektoru.

***Giriş***. Ölkəmiz müstəqillik əldə etdikdən sonra uşaq siyasətin uğurlu fəaliyyəti üçün böyük addımlar atmışdır. Azərbaycan Respublikası uşaq hüquqlarının müdafiəsi sahəsində bir sıra beynəlxalq sənədlərə qoşulmuş və bu sahədə aidiyyəti hüquqi mexanizmləri qəbul etmişdir.

Bu illər ərzində mütəmadi olaraq milli qanunvericilik və normativ-hüquqi aktlar təkmilləşdirilmiş, uşaq hüquqlarının müdafiəsi, formalaşması, sağlam böyüməsinə yönəlmiş bir çox Dövlət Proqramları, Tədbirlər Planları qəbul edilmişdir.

Uşaq hüquqlarının müdafiəsi sahəsində ictimaiyyətin, o cümlədən qeyri-hökumət təşkilatlarının cəlb edilməsi və bu sahədə dövlət və qeyri-hökümət sektorun birgə fəaliyyətlər üzrə koordinasiya işinin gücləndirilməsi prioritet məsələlərdən biridir.

***Müstəqillik illərində Azərbaycanda valideyn himayəsindən məhrum olan uşaqların sosial müdafiəsi sahəsində dövlət siyasətinin əsas istiqamətləri***. Uşaq hüquqlarının müdafiəsi ilə bağlı ilk beynəlxalq sənəd - Uşaq Hüquqları Haqqında Konvensiya Beynəlxalq Qadınlar Federasiyasının təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatı tərəfindən 1949-cu ildə qəbul olunub. 1991-ci il oktyabrın 18-də özünün dövlət müstəqilliyini elan etmiş Azərbaycan Respublikası çox keçmədən, 1992-ci ildə həmin konvensiyaya qoşulub. Bu beynəlxalq sənəd ölkəmizin qoşulduğu ilk beynəlxalq sənədlərdən biri olmuşdur. Azərbaycan Hökuməti Konvensiya üzrə BMT-nin Uşaq Hüquqları Komitəsinə dövri məruzələr təqdim etməyə başladı [1].

1993-cü ildən başlayaraq ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə bu sahənin fəaliyyətini tənzimləyən milli qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə ardıcıl islahatlar həyata keçirilmişdir.

Azərbaycan, eyni zamanda, "Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında", "Uşaqların kənd təsərrüfatında işə buraxılmasının minimum yaşı haqqında", "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" və digər Konvensiyalara da qoşulmuşdur. Dövlət tərəfindən ratifikasiya edilmiş konvensiyalara əsasən daxili qanunvericilikdə mühüm islahatlar aparılmışdır.

XX əsrin sonlarında iqtisadi keçid dövrünün ciddi problemləri, Ermənistanın Azərbaycana təcavüzü və torpaqlarımızın 20 faizini zəbt etməsi bir sıra xoşagəlməz, mənfi sosial hadisələrin baş verməsinə gətirib çıxarmışdır. Ölkədə bir milyon Azərbaycan vətəndaşı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür, onların üç yüz mindən çoxu uşaqlardır. Bu da təbii ki, uşaq problemlərini və onların hüquqlarının kobud surətdə pozulmasını yaradan amildir. 1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, ermənilərin Azərbaycanda uşaqları qətlə yetirilməsi faktları qeydə alınmaqda davam edir. Bu hərbi münaqişə zamanı 175 uşaq qətlə yetirilmiş, yaralanan uşaqların sayı isə yüzlərlə olmuşdur. Dövlətimiz münaqişə müddətində 214 uşağın əsir və girovluqdan azad edilməsinə nail olmuşdur, 66 uşaq itkin düşmüşdür [2].

Zaman keçdikcə, ölkədə uşaq məsələləri kompleks yanaşma tələb edirdi. Və bu zərurət bu sahədə fəaliyyət göstərəcək dövlət qurumunun yaranmasına səbəb oldu. 6 fevral 2006-cı il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ya-

radıldı [3]. Yarandığı gündən etibarən Komitə ailə, qadın və uşaq hüquqlarının müdafiəsi sahələrində vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak edir, bu siyasətin həyata keçirilməsi və inkişafını təmin edir, qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2008-ci il tarixli, 103 saylı Sərəncamı ilə 2009-cu il "Uşaq ili" elan olunmuşdur. Elə həmin il - "Uşaq ili" çərçivəsində 17-18 dekabr tarixlərində Azərbaycanda ilk dəfə Azərbaycan Uşaqlarının I Ümumrespublika Forumu keçirilmişdir. 16 noyabr 2011-ci il tarixində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Heydər Əliyev Fondu və BMT Uşaq Fondunun ölkəmizdəki nümayəndəliyinin birgə təşkilatçılığı ilə II Forum keçirilmişdir. 17 noyabr 2014-cü il tarixində keçirilən III Forumda Azərbaycanın bütün şəhər və rayonlarından 350-dən çox uşaq iştirak etmişdir. Forum zamanı uşaqlarla hökumət nümayəndələrinin birbaşa dialoqu baş tutmuşdur. İştirakçılar hökumət üzvlərinə onları maraqlandıran sualları verərək cavab almaq imkanı əldə etmiş, öz təklif və fikirlərini irəli sürmüş, fikir mübadiləsi aparmışlar.

Uşaq məsələləri ilə əlaqədar dövlət qurumları arasında koordinasiya və nəzarət sistemi təkmilləşdirilmişdir. 2012-ci ildən Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"na əsasən, dövlət müəssisələrində uşaqların qidalanma, nəzarət, təhlükəsizlik, zorakılığa məruz qalma və digər məsələlərlə bağlı monitorinq aparılmışdır. Hazırlanmış tövsiyələr əsasında təlim-tərbiyə müəssisələrində şərait standartlara uyğunlaşdırılmış, mütəxəssislər üçün yeni təlimlər keçirilmişdir.

***Tədqiq edilən dövr ərzində qanunvericilik bazasının yaradılması və gücləndirilməsi***. Uşaq siyasətinin reallaşmasında güclü qanunvericilik bazasının yaradılması çox vacib idi. Keçən dövr ərzində davamlı olaraq milli qanunvericilik və normativ-hüquqi aktlar təkmilləşdirilmiş, uşaq hüquqlarının müdafiəsi, normal formalaşması və uşaqların sağlam böyüməsinə yönəlmiş bir çox Dövlət Proqramları, Tədbirlər Planları qəbul edilmişdir.Bu proqramlar uşaqların hüquq və maraqlarının müdafiəsi, vahid dövlət uşaq siyasətinin formalaşdırılması, bu siyasətin tənzimlənməsi, həyata keçirilməsinin təmin edilməsi, uşaqların fiziki, əqli, mənəvi, əxlaqi və sosial inkişafı üçün lazımi həyat səviyyəsinin təmin olunması sahəsində milli konsepsiyanı inkişaf etdirməyə yönəlmişdir.

Uşaq hüquqlarının müdafiəsini təmin etmək məqsədilə 19 may 1998-ci ildə "Uşaq hüquqları" haqqında qanun qəbul edilmişdir. Qəbul olunmuş bu mühüm hüquqi sənəd uşaqların hüquqlarını və azadlıqlarını, onlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir, ailə, cəmiyyət və uşaq münasibətlərinin əsas istiqamətlərini tənzimləyir.

22 iyun 1999-cu ildə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasinin qanunu qəbul olunmuş və bu qanun valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların hüquqlarının müdafiəsi sahəsində en prioritet normativ-hüquqi aktlardan biridir.

2010-cu ildə Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Həmin Qanunda məişət zorakılığından əziyyət çəkən yetkinlik yaşına çatmamış şəxslərin hüquqlarının və mənafelərinin müdafiəsi ilə bağlı müəyyən müddəalar mövcuddur.

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqların sosial müdafiəsi sahəsində qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanundan, digər normativ hüquqi-aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən ibarətdir.

***2004-2015-ci illər çərçivəində valideyn himayəsindən məhrum olan uşaqların sosial müdafiəsi sahəsində Heydər Əliyev Fondunun rolu***. 2004-cü ildən fəaliyyətə başlamış Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir.

Heydər Əliyev Fondunun fəaliyyətində uşaqların müdafiəsinin başlıca yer tutur. 2004-cü ildən cəmiyyət həyatında fəal mövqe tutan Heydər Əliyev Fondunun reallaşdırdığı ilk layihə, təsadüfi deyil ki, "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" olmuşdur. Bu layihə ölkədəki uşaq evləri

və internat məktəblərinin çoxunda mövcud vəziyyəti kökündən dəyişməyə, uşaqların sosial şəraitini yaxşılaşdırmağa, təlim-tərbiyənin səviyyəsini yüksəltməyə, ən başlıcası isə, ailə mühitinə yaxın olan şəraitdə böyüməlırinə imkan yaratmışdır. İndiyədək Heydər Əliyev Fondu tərəfindən respublikada fəaliyyət göstərən uşaq evi və internat məktəbində təmir və yenidənqurma işləri aparılmışdır.

Ötən dövrdə uşaqların müdafiəsi mexanizminin müəyyən edilməsi və yeni alternativ qayğı formalarının yaradılması sahəsində yaxşı irəliləyişlər əldə edilmişdir. Ailə qayğısından məhrum olan uşaqların problemlərinə diqqəti artırmaq məqsədi ilə 2005-ci ildə qurumun təşəbbüsü ilə Azərbaycan hökuməti, beynəlxalq və qeyri-hökumət təşkilatları, uşaq evləri və internat məktəbləri nümayəndələrinin iştirakı ilə “Uşaq evlərindən uşaqların ailələrə verilməsi və Azərbaycan Respublikasında alternativ qayğı” mövzusunda “dəyirmi masa” keçirilmiş, səmərəli diskussiyalar aparılmışdır.

Həmçinin Fondun dəstəyi ilə uşaq evləri və internat məktəblərinin məzunu olan gənclər üçün yaşayış binalar tikilir və istifadəyə verilir. Həmin binalarda kafe və mətbəx, bərbərxana, ticarət salonu, stolüstü oyunlar və internet zalları, camaşırxana var. Mənzillərin hamısı mebel, inventar və avadanlıqla, o cümlədən mətbəx avadanlığı və yataq dəstləri ilə təchiz edilib. Binada fəaliyyət göstərən xidmət sahələrində də məzunların işlə təmin olunmasına dair işlər görülür.

Respublikanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın uşaq məsələlərinə diqqəti bu sahəyə qayğının daha da artırılmasına səbəb olur. Mehriban xanımın təşəbbüsü ilə xüsusilə həssas təbəqədən olan uşaqların hərtərəfli inkişafı, keyfiyyətli təhsil, yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin olunması, kimsəsiz, fiziki sağlamlığında problemi olan uşaqların sosial-psixoloji reabilitasiyası üçün resurs mərkəzinin yaradılması, bu uşaqların gələcəkdə məşğulluğunun təmin edilməsi, eləcə də müxtəlif peşələrin öyrədilməsi istiqamətində önəmli layihələr həyata keçirilir. "Yeniləşən Azərbaycana yeni məktəb” layihəsi çərçivəsində yüzlərlə təhsil ocağı tikilib istifadəyə verilmişdir. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı” və "Məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidən qurulması” layihəsi çərçivəsində 100-dək körpələr evi, bağça və internat məktəbi əsaslı təmir olunmuşdur. "Təhsilə dəstək” və "İnklüziv təhsil” proqramları, eləcə də "Məzun Evi Sosial” Müəssisəsi Fondun xidmətləri sırasında vurğulamaq olar [4].

***Nəticə***. Tədqiq edilən dövr ərzində valideyn himayəsindən məhrum olan uşaqların sosial müdafiəsi sahəsində qanunvericilik bazasının yaradılması, dövlət programlarının icrası, maarifləndirici təşəbbüslərinin aparılması uşaq hüquqların müdafiəsi sahəsində yeni düşüncə tərzinin formalaşmasına və müəyyən stereotiplərin aradan qaldırılmasına təkan verib.

Bu sahəyə qeyri-hökümət sektorun cəlb edilməsi, dövlət və vətandaş cəmiyyətinin birgə fəaliyyətlərinin gücləndirilməsi müsbət nəticələrə nail olmasına səbəb olub.

Heydər Əliyev Fondu tərəfindən valideyn himayəsindən məhrum olan uşaqların müdafisəi sahəsində həyata keçirmiş layihələr, yeni məktəblərin inşası, körpələr evi, internat məktəblərinin əsaslı təmiri və yenidən qurulması prosesində yaxından iştirakı Azərbaycanın gələcəyi olan uşaqlara yüksək qayğı nümunəsi olmaqla yanaşı, cəmiyyətin ümumi potensialının bu yöndə səfərbər olunmasına yönəlmişdir.

## ƏDƏBİYYAT

1. “Uşaqların layiqli vətəndaş kimi formalaşması prioritet istiqamətdir” - Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, siyasi elmlər üzrə fəlsəfə doktoru Bahar Muradova ilə müsahibə / “Azərbaycan” qəzeti, 01.06.2020. - http://www.azerbaijan-news.az/view-190336/usaqlarin-layiqli-vetendas-kimi-formalasmasi-prioritet-istiqametdir [Müraciət tarixi: 01.03.2022].
2. V.Məmmədəliyev, B.Sadıqov, A.Rzayev, A.Sofiyeva. Children are innocent victims of war, Bakı: Neoprint, 2017, 34 s.
3. “Dövlət uşaq siyasəti uğurla davam edir” - Azərbaycan Respublikası Milli Məclisin Ailə, Qadın və Uşaq məsələləri Komitəsinin sədri Hicran Hüseynova ilə müsahibə / Səs qəzeti, 23 noyabr 2017. - Mənbə: https://sesqazeti.az/news/interview/648503.html [Müraciət tarixi: 01.03.2022].
4. “Uşaq hüquqları: dünəndən bu günə” - Azərbaycan Respublikası Milli Məclisin Ailə, Qadın və Uşaq məsələləri Komitəsinin sədri Hicran Hüseynova ilə müsahibə / “Yeni Azərbaycan”, 05.06.2018. - https://www.yeniazerbaycan.com/Sosial_e41464_az.html [Müraciət tarixi: 01.03.2022].

**РАИДА АМИРБЕКОВА**
*Член Руководящего комитета по правам ребенка Совета Европы,*
*Докторант Азербайджанского Университета*

## РОЛЬ НЕПРАВИТЕЛЬСТВЕННОГО СЕКТОРА ПО СОЦИАЛЬНОЙ ЗАЩИТЕ ДЕТЕЙ, ЛИШЕННЫХ РОДИТЕЛЬСКОГО ПОПЕЧИТЕЛЬСТВА (2004-2015 годы)

В данной статье анализируются основные направления государственной детской политики, а также деятельность и инициативы Фонда Гейдара Алиева по социальной защите детей, лишенных родительского попечительства.

*Ключевые слова*: независимость, детская политика, законодательство, международные конвенции, государственные программы, детские учреждения, неправительственный сектор.

**RAIDA AMIRBAYOVA**
*Member of the Steering Committee for the Rights of the Child of the Council of Europe,*
*Doctoral student of Azerbaijan University*

## THE ROLE OF NON-GOVERNMENTAL SECTOR IN SOCIAL PROTECTION OF CHILDREN DEPRIVED FROM PARENTAL CARE (2004-2015)

This article analyzes the main directions of the implementation of children's policy in the years of independence in the Republic of Azerbaijan. The author also studies the activities and initiatives of Heydar Aliyev Foundation in social protection of children deprived from parental care.

*Keywords*: independence, children policy, legislation, international conventions, state programs, child institutions, non-governmental sector.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 03 mart 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.*
*Rəyçilər: t.e.d. Qabil Əliyev, t.e.d. Sevinc Yusifzadə.*